Səh. 2 Ümummilli arzular – Azər Musaoğlu
Səh. 5 İslam Musayevin xatirəsinə – Leyla Yusifova
Səh. 5 Ata sevgisi – Aytən Fətullayeva
Səh. 6 Kaş o günlər bu gün olaydı... – Esmira Ələkbərli
Səh. 3 Bazar yerindən qeydlər – Afiq Muxtaroğlu
Səh. 4 XALQ MÜDAFİƏÇİSİ: “TƏHSİL SİSTEMİNDƏ APARILAN İSLAHATLAR ETNİK AZLIQLARIN QARŞISINDA DURAN PROBLEMLƏRƏ MÜVAFİQ CAVAB VERMİR”
Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY 2024-CÜ İL
№ 09 (204)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## ABŞ KONQRESİNİN 29 ÜZVÜ KOBAXİDZEYƏ “XARİCİ AGENTLƏR” QANUNUNU GERİ ÇƏKMƏK ÜÇÜN MÜRACİƏT EDİBLƏR



ABŞ Konqresinin 29 üzvü Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə “xarici agentlər” qanununun geri çəkilməsi tələbi ilə açıq məktub ünvanlayıb.

Müraciətdə Gürcüstan hökumətinin bir il əvvəl geri çəkdiyi qanun layihəsini yenidən təqdim etməsindən dərin narahatlıq ifadə olunub.

Qeyd olunub ki, bu qanun layihəsi 2009-cu ildə Rusiyanın Gürcüstanı işğal etməsindən aylar sonra imzalanmış ABŞ-Gürcüstan Strateji Tərəfdaşlıq Xartiyasına, həmçinin hökumətin transatlantik ictimaiyyətə inteqrasiya istəklərinə əsaslı surətdə ziddir.

“Biz bu zərərli qanun layihəsini bir daha geri çəkməsi üçün sizin hökumətinizə şiddətli çağırış edirik. “Xarici agentlər” qanununun aydın bəhanəsi Gürcüstan xalqı ilə yanaşı onların onillərdir transatlantik inteqrasiyasının dəstəklənməsi üçün işləyən tərəfdaşlar üzərində nəzarət həyata keçirməkdir. Sadə dillə desək, bu qanun layihəsinin qəbul edilməsi Qərbdə gələcəyini axtaran Gürcüstan xalqının iradəsini baltalayacaq”, – məktubda qeyd olunub.

Konqresmenlər qanun layihəsinin ABŞ qanunvericiliyi modeli əsasında hazırlanmasına dair iddiaları rədd etdiklərini, qanun layihəsinin 2012-ci ildə Rusiyada qəbul edilmiş “xarici agentlər” qanunu ilə bənzərliklərə malik olduğunu qeyd ediblər.

Məktubda həmçinin Gürcüstanın sabiq Baş naziri, hakim “Gürcü Arzusu” partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvilinin aprelin 29-da parlament binası qarşısında keçirilmiş mitinqdəki çıxışlarından dərin narahatlıq ifadə olunub.

Konqresmenlər rusiyalı ideoloq Aleksander Duqinin proseslərlə əlaqədar “Gürcüstan doğru yoldadır” deməsini, həmçinin Rusiya xarici işlər naziri Sergey Lavrovun qanun layihəsini dəstəkləməsini xatırladıblar.

## GÜRCÜSTAN PARLAMENTİ “XARİCİ TƏSİRİN ŞƏFFAFLIĞI” QANUNUNU QƏBUL EDİB



Gürcüstan parlamenti hakim “Gürcü Arzusu” partiyasının təqdim etdiyi “Xarici təsirin şəffaflığı haqqında” qanun layihəsini mayın 14-də üçüncü oxunuşda qəbul edib.

Qanun layihəsinin lehinə 84, əleyhinə isə 30 deputat səs verib.

Bununla da ölkədə ciddi narazılığa və qarşıdurmaya səbəb olan qanun layihəsi qəbul edilib və yaxın bir neçə gün ərzində təsdiqlənmək üçün Prezident Salome Zurabişviliyə təqdim olunacaq.

Qanun layihəsinə əsasən, büdcəsinin 20 faizdən çoxu ölkə xaricindən formalaşan qeyri-kommersiya təşkilatları “xarici qüvvələrin nüfuzunu həyata keçirən təşkilat” kimi reyestrdən keçməli, hər il maliyyə hesabatı təqdim etməlidir. Qanunu pozan təşkilatların 25 min lariyədək cərimələnməsi nəzərdə tutulur.

## AVROPA PARLAMENTİNİN DEPUTATLARI GÜRCÜSTANIN Aİ-YƏ NAMİZƏDLİK STATUSUNUN DAYANDIRILMASI İLƏ BAĞLI MÜRACİƏT EDİBLƏR



Avropa Parlamentinin (AP) 31 deputatı Gürcüstanın Avropa İttifaqına (Aİ) namizədlik statusunun ləğv edilməsi və Gürcüstana maliyyə yardımlarının nəzərdən keçirilməsi üçün Aİ-nin xarici siyasət rəhbəri Cozep Borellə müraciət edib. Bu barədə AP-nin üzvü Petras Austrevicius “X” platformasındakı paylaşımında bildirib.

Deputatlar Gürcüstan rəsmilərinin və hakim “Gürcü Arzusu” partiyasının davranışlarının namizəd ölkənin öhdəliklərinə zidd olduğunu bəyan ediblər.

“Birincisi, Gürcüstan rəsmilərinin və hakim “Gürcü Arzusu” partiyasının davranışı Avropa İttifaqı namizədi ölkənin öhdəliklərinə ziddir. Ona görə də Gürcüstanın namizəd statusu üzvlük prosesində əlavə proqres olmadan dayandırılmalıdır. İkincisi, Gürcüstanın dövlət büdcəsinə və hökumət proqramlarına Aİ maliyyəsi bir daha nəzərdən keçirilməlidir”, – deyə Avropa Parlamentinin deputatlarının Borellə məktubunda bildirilib.



# ÜMUMMİLLİ ARZULAR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

*İnsanın mahiyyəti onun arzularında təzahür edir (Benedikt Spinoza).*

Doğum günlərində, yubileylərdə, toylarda, bayramlarda, tədbirlərdə, sosial şəbəkələrdə deyilən, yazılan arzulara baxsaq mahiyyətimizi aydın görə bilərik...

Bu yaxınlarda parkda 7-8 yaşlarında iki oğlan uşağının bir-birinə ən böyük arzularını deməsini eşitdim. Birinin ən böyük arzusu "Gelandewagen", digərininki isə "BMW X6" markalı avtomobil idi. Uşaqlar çoşqun halda, qışqıraraq hərəsi öz arzuladığı avtomobili tərifləyir, öz arzuladığı avtomobilin daha sürətli, güclü, bahalı olmasını bir-birinə sübut etməyə çalışır, biri digərinin arzuladığı avtomobili pisləyirdi...

Dəbdə olan bahalı avtomobil arzulamaqda pis heç nə yoxdur, amma halva-halva deməklə ağızın şirin olmamasını yaxşı bilirik. Onu da yaxşı bilirik ki, dəbdə olan bahalı avtomobilləri əldə etmək üçün heç bir iş görməyib, oxumayıb, təhsil almayıb, əlini ağdan qaraya vurmayıb, avaragor həyat yaşayaraq sadəcə arzulamaq ac toyuğun yuxuda darı görməsi kimi bir zaddır.

Əslində isə bu bahalı avtomobillər uşaqların öz arzuları deyil, onların valideynlərinin arzularıdır. Ümumiyyətlə, bizdə uşaqların öz arzuları olmur, onlar atalarının, analarının, babalarının, nənələrinin, əmilərinin, dayılarının, xalalarının, bibilərinin, böyük qardaşlarının, böyük bacılarının, qonşularının, televiziya kanallarında hər gün çal-çağır edən "xolodilniki" dolu müğənnilərin, aparıcıların, tik-tokçuların arzularını arzulayırlar, arzularını yerinə yetirirlər, arzularını həyata keçirirlər, çin edirlər.

Buna görə də bizdə uşaqdan böyüyə – hamının arzusu eynidir, hamı eyni şeyləri arzulayır. Ən böyük arzularımız yeddi oğul, bir qız yiyəsi olmaq, qırx gün, qırx gecə toy edərək övlad evləndirmək, üskükdən tutmuş güzgülü şkafa qədər maşın-maşın cehiz vermək, nəvə-nəticə sahibi olmaq, bütün nəvələrin-nəticələrin toyunu görmək, bütün nəvələrin-nəticələrin toyunda qollarını qaldırıb bütün nəvələrlə-nəticələrlə "Nənəm, nənəm" mahnısına sındırmaq, hasarı özündən hündür iki mərtəbəli ev tikmək, "Gelandewagen" və ya "BMW X6" almaq, uzun ömür, can sağlığı, qazanmağa Rusiya yaxşı, ölməyə vətən yaxşı, nə ilə olur olsun, hansı vasitə ilə olur olsun çoxlu-çoxlu pul qazanmaq, varlanmaq, qonşudan dala qalmamaq, qohumdan qabağa getmək və sair və ilaxır.

Mən hələ heç bir doğum günlərində, toylarda, bayramlarda məktəbi uğurlu bitirməklə, universitetə qəbul olmaqla, sənət, elm sahələrində müvəffəqiyyətlər qazanmaqla bağlı arzu və diləklər eşitməmişəm. Eşitməmişəm ki, bəylə gəlinə yeddi oğul, bir qız arzulayanlar o yeddi oğul, bir qıza da heç olmasa məktəbi uğurla bitirmək, universitetə qəbul olmaq arzulasınlar. Biz sünnət toyuna kiçik toy adını qoyub uşaqlarımızın kiçik toylarında onlara böyük toy arzu eləmişik, böyük toylarında da gəlinlə bəyə bir yastıqda qocalmağı arzu edərək həyatdakı missiyamızın təkcə çoxalmaqdan ibarət olduğu mesajını nəsildən-nəslə ötürmüşük...

Əvvəl bütün uşaqlar rəssam olmağı arzulayardılar. İndi bizdə uşaqlar nə rəssam, nə müəllim, nə kosmonavt olmağı arzulayırlar. Bizdə uşaqlar böyüklərin arzularını həyata keçirmək üçün, gerçəkləşdirmək üçün dünyaya gətirilirlər. Dünyaya gətirilirlər ki, öz atalarının, analarının, babalarının, nənələrinin, əmilərinin, dayılarının, xalalarının, bibilərinin, böyük qardaşlarının, böyük bacılarının, qonşularının, televiziya kanallarında hər gün çal-çağır edən "xolodilniki" dolu müğənnilərin, aparıcıların, tik-tokçuların arzularını icra etsinlər – böyüsünlər, kiçik toyları olsun, böyük toyları olsun, onlar da nəsildən-nəslə ötürülən ümummilli arzuları gerçəkləşdirmək üçün yeddi oğul, bir qız dünyaya gətirsinlər, bir yastıqda qocalsınlar...

"Arzuya bax sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?" *(Mikayıl Müşfiq).*

# SİYASİ ŞƏRHÇİ ŞAHİN CƏFƏRLİ: "QƏRB ÜÇÜN BIDZINA İVANİŞVİLİNİN İSTİFADƏ MÜDDƏTİ BAŞA ÇATIB"



Gürcüstanda keçirilən Avropa Marşı müstəqillik dövrünün ən izdihamlı aksiyası kimi yadda qalacaq.

Avrointeqrasiya əhalinin 90 %-i tərəfindən dəstəklənən milli ideyaya, həqiqi mənada gürcülərin arzusuna çevrildiyi halda, "Gürcü Arzusu"nun bu ümummilli hədəfi sabotaj etməyə yönəlmiş siyasətinin rasional tərəfi yoxdur. Müxalifətin çoxlu zərrəciklərə parçalandığı, Vahid Milli Hərəkatdan qopmaların hələ də davam etdiyi bir şəraitdə "Gürcü Arzusu"nun oktyabrdakı seçkiləri də udmaq şansı var.

Belə olan halda, Rusiyadakının analoqu olan axmaq bir qanun layihəsini qəbul edib, Putin rejimi mənsublarının ritorikası ilə danışaraq xalqı və Qərbi öz üzərinə qaldırmaq hökumətin nəyinə gərək? Bu, hökumətə, hakim partiyaya yox, yalnız bir nəfərə lazımdır.

Görünən odur ki, Qərb üçün Bidzina İvanişvilinin istifadə müddəti başa çatıb. Avropa Birliyinin üzvlük üçün Gürcüstanın qarşısında qoyduğu 9 şərtdən biri deoliqarxizasiya aparılmasıdır. Tərcüməsi budur ki, dövlət üzərində İvanişvilinin hüdudsuz hakimiyyətinə tam şəkildə son qoyulmalıdır. Qoca oliqarx isə buna qarşı özünümüdafiə mexanizmi qurur və bədnam qanun layihəsi də bu məqsədə xidmət edir. Bir tərəfdən Avropa Birliyi və dəyərlərinə qarşı ağzına gələni söyləyib, sonra sanki özü qərar verəcəkmiş kimi "Gürcüstan 2030-cu ildə mütləq AB üzvü olacaq" demək xalqın zəkasını ələ salmaqdır (Zəka demişkən, bir neçə gün əvvəl baş nazir Kobaxidze bildirdi ki, ölkədə IQ səviyyəsi yüksək olan insanlar hakimiyyəti dəstəkləyir).

İvanişvili öz şəxsi taleyini dövlətin taleyi ilə birləşdirməyə, dövləti öz şəxsi maraqlarının (o cümlədən kapitalının) müdafiəsi üçün zirehə çevirməyə çalışır və bu gün faktiki olaraq, Gürcüstanı girov götürüb.

Xalq isə yaranmış tarixi şansı bir nəfərin hikkəsinə qurban vermək istəmir. Bu gün meydana toplaşan yüz minlərin hamısı müxalifətçi deyil, belə təqdim etmək heç hakimiyyətə də sərf eləməz. Bu, milli iradənin təcəssümüdür. Bu iradə ilə hesablaşmayıb, sərt rejim bərqərar edərək ölkənin üzünü yenidən şimala çevirmək mümkün ehtimal kimi görünmür.

# XARİCİ VƏ DAXİLİ MƏN

İnsan tək olaraq görünsə də, əslində özünün daxilində bir mən var, kimsənin tanımadığı, bilmədiyi bir mən. İstək və arzularını, sevincini və kədərini kimsənin bilmədiyi, duymadığı bir mən.

Əgər daxildəki "mən"in arzu və istəkləri normal həyatın axışına tərs deyilsə və eqo tətmin edici deyilsə, istəklərində yalnız öz arzu və duyğuları ön plana atılmayıbsa daxildəki "mən" də xaricə yansıyır. İnsan yalnız tək özü ilə savaşır və qalib olur. Əgər insanın daxilindəki "mən"i xaricindəki mən ilə üst-üstə düşmürsə, arzuları, gözləntiləri fərqlidirsə, o zaman xaricdəki "mən"i görünüşcə tətmin etmiş olsa da, daxildəki "mən" hüzursuz və qəmgindir.

Həyatda bəzən insanların normal həyat standartlarının olmasına baxmayaraq qəmgin və bədbəxt görünmələrinin, özlərini elə hiss etmələrinin altında yatan səbəb də məhz budur.

Bəzən insanlarla söhbət zamanı həyatında dərdlənəcək ciddi məqamın olmadığını görürsən, lakin həyatındakı standartların gətirdiyi vəziyyət insana yansımır, həyatı pozitivdir, özü isə onun əksidir. O zaman anlayırsan ki, insan daxilindəki "mən"i ilə bir savaşdadır, onu tətmin edə bilmir, onu tətmin edə bilmək üçün onun istəklərini ifşa etməsi lazımdır. Onu ifşa etməsi ətrafdan iradlara səbəb olduğu üçün ifşa da edə bilmir və bu burulğan arasında ömür sürməyə çalışır. Gözlənilmədən ruh halının dəyişdiyini, aqressivləşdiyini və səbəbsiz yerə əsəbi olduğunun şahidi oluruq. Kənardan baxan biri olaraq səbəbsiz zənn etdiyimiz şeylərin altında əslində daxili və xarici mənlə mübarizə yatır. Kimin qalib olacağı bilinməz, ancaq bundan xilas olmağın yolu odur ki, daxildə kimsənsə xaricə yansıman da o olmalıdır.

Sən sənlə savaşarkən həyat axıb gedir, gedən ömür təkrar qaytarılmır, keçən illərin təlafisi olmur. Yaxşısı budur hər iki "mən"in tərbiyəsi ilə şəxs özü məşğul olsun və iki "mən"i bir etməyi bacarsın ki, ömür deyilən fəslin necə keçdiyini dərk eləsin, necə yaşadığını, kim üçün yaşadığını idrak etsin.

Fani həyat burulğanında sovrulub gedərkən durub bunları düşünmək və addım atmaq lazımdır.

Sən səni adam edə bilməsən kimsə gəlib səni adam edə bilməz. Ən təsirli qüvvə elə insanın özüdür.

**Lamiyə HACIYEVA**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri*

# BAZAR YERİNDƏN QEYDLƏR



Avqustun son bazar günü qeyri-adi nəsə almaq ümidiylə Brüsselin Anderlext bələdiyyəsində yerləşən, bizim rayonun məşhur həftəbazarı kimi yalnız bazar günləri fəaliyyət göstərən bazara baş çəkirik. Bazarətrafı küçələrdə maşınların əlindən tərpənmək mümkün deyil.

Səkilərdə adamların çoxluğu da ilk anda gözə çarpır. Bir it zülmüylə maşına yer tapıb saxlayırıq. Bu arada dünyanın hər yerində bazarətrafı yerlərin bir-birinə bənzədiyini də düşünürəm.

Bazar yoluna çıxırıq. Gözünüz yaxşı şeylər görsün. İndi mən gördüklərimi bir-bir sadalayım, siz də qulaq verin.

Qarşılaşdığımız adamların əllərindəki dolu çantalar, torbalar onların bazardan yenicə çıxdıqlarını, ağız-burunlarını qapatdıqları maskalar isə koronavirusun varlığını təsdiqləyirdi. Maska taxmağın zülüm bir şey olduğunu da hər hərəkətləri büruzə verir. Küçənin bu insan sıxlığında Avropa mənşəlilərin azlığı diqqətimdən yayınmır. Daha çox afrikalılar, ərəblər gözə dəyir. Bazar küçəsində gedib-gələnə ucuz qiymətə siqaret təklif edən zəncilər istənilən qədərdir. Onlar ölkəyə qaçaq yolla gətirilmiş malları satmaqla məşğuldurlar. Siqaret satıcıları ilə eyni sıranı paylaşıb siqaretlərini tüstülədən qadınların düz yolun yolçuları olmadığı hər hallarından bəlli. Ancaq onların buradakı varlığı ümumi mənzərəyə əlavə ekzotik çalar qatır. Nə yazıq ki, onların arasında ağdərililərə rast gəlməzsən. Onların üz-gözünə hopmuş kədəri oxumaq o qədər də çətin deyil. Qara günün onları qara yola saldığını üz-gözlərinə bulaşmış kədər aydın ifadə edir.

Sıra ilə düzülmüş yeməkxanalardan ətrafa yayılan yanmış yağ qoxusu, müxtəlif ədviyyatların bir-birinə qarışmış ürəkbulandırıcı kəskin ətri, küçə boyu hara gəldi atılmış kağız-kuğuz, polietilen qırıntıları, cürbəcür boş içki qabları, yemək qalıqları adamı çaş-baş salır. Bir anlıq özünü Avropada yox, başqa bir aləmə düşmüş kimi hiss edirsən. Bütün bunlar sənin bazarın üç-beş addımlığında olmandan xəbər verir.

Sütunları üzərində iki qəzəbli buğa heykəli olan alaqapıdan bazara daxil olursan. Nəzarətçilər bazarlığa gələnləri maska taxmağa dəvət edirlər. Girişdə quraşdırılmış xüsusi keçiddə dezinfeksiyaedici məhluldan istifadə edib, nəhayət, bazara varid olursan.

Anderlext bazarı açıq bazardır. Səs-küy, ağız deyəni qulaq eşitmir. Lazımlı-lazımsız mallar müştərilərə təqdim olunur. Ucuzluqdur. Nədən? – Satılan malların çoxu Çin istehsalı, keyfiyyətsiz, dəbdən düşmüş. Malların üzərinə yapışdırılmış qiymətlər bu bazarın yoxsullar üçün nəzərdə tutulduğundan xəbər verir. Satıcıların böyük əksəriyyəti zəncilər, ərəblər, nə başınızı ağrıdım, gəlmələrdir. Elə alıcıların da çoxu onlardandır. Alıcıların arasında keçmiş sovet ölkələrindən, Şərqi Avropadan buralara mövsümi iş dalınca gələnlərə də rast gəlmək olur.

Bazarın böyük bir hissəsi meyvə-tərəvəz, ət məhsulları, məşhur holland pendiri satışı üçün nəzərdə tutulub. Burada hər cür məhsul tapmaq imkanın var. Meyvə, göy-göyərti, bostan məhsulları, dəli sözü "itinə tök, pişiyinə dağıt". Bir az da marketlərdəkindən ucuz. Fransız, flamand, ərəb dillərində müştəri çağıran satıcıların çığır-bağırı adamın beyninə düşür. Üstəlik bu səs-küyə alıcıların da səsi qarışaraq dözülməz mənzərə yaradır. Qınından çıxıb, qınını bəyənməmək olmasın. Mən bazar səsinə uşaqlıqdan alışqanam. Nədən ki, əvvəllər Tiflisin "Naftulluq", "Avlabar", "Dizertir", sonralar "Lilo" bazarına, rayonumuzun həftəbazarına, Bakının, İstanbulun səsli-küylü ticarət məkanlarına az-çox ayaq döymüş adamam. Amma ilyarımdan çoxdur ki, bu Şərq səs-küyündən uzaq düşməyim görünür təsirsiz ötüşməyib. Qüsura baxmayın.

Bazarın içərisində də müxtəlif xalqlara məxsus mətbəxlərdən yüksələn kəskin ədviyyat qoxusu adamı buradan bir ayaq tez çıxmağa sövq edir. Bax, bu yerdə deyiblər: "Kabab iyinə gəlmişdik, gördük eşşək dağlanır".

Bazarın çıxışında dilənçilər, qaraçılar diqqətimi cəlb edir. Onları bazara girəndə niyə fərq etmədiyimi qafamdan keçirirəm. Heç sona qədər düşünməyə macal tapmamış bir qaraçı qadın peyda olub əl açır. Mən də əlimi cibimə salıb onu razı yola salmalı oluram. Çünki illərin təcrübəsi bu qadına kimdən pul çıxacağını da öyrədib. Həm də mən bu qaraçıları filmlərdən yox, həyatdan tanıyıram. Uşaqlığımdan. Onların qır-saqqız olub adamın yaxasından necə yapışdıqlarını, istədiklərini almayınca aralanmayacaqlarını da bilirəm.

...Beləcə səs-küyü ilə Şərq bazarlarını xatırladan bu məkandan heç nə almadan, əlim ətəyimdən uzun uzaqlaşıram. Anderlext bazarından mənə qalan telefonumun yaddaşına köçürdüyüm bu qeydlər olur...

**Afiq MUXTAROĞLU**

## 3027 BAĞÇA MÜƏLLİMİNDƏN 1895-İ PEŞƏ İNKİŞAFI TƏLİMLƏRİNİ UĞURLA KEÇİB



Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin 2023-cü il hesabatında məktəbəqədər təhsil müəssisələrinə aid dəyişikliklərdən söhbət açılır.

Erkən və məktəbəqədər tədris və təhsil keyfiyyətinin təmin edilməsi üçün çərçivə, eləcə də ilkin qeydiyyat üçün elektron sistem yaradılıb.

Erkən tədris və təhsil, yaxud məktəbəqədər tədris və təhsil və ya yalnız məktəbə hazırlıq proqramını həyata keçirən 2047 müəssisə, xidmət göstərən fərdi sahibkar özünüqiymətləndirmə həyata keçirib.

Həmçinin erkən və məktəbəqədər tədris və təhsil müəssisələrinin Avtorizasiya Şurası yaradılıb, Ekspertlər Korpusu formalaşıb. Erkən tədris və təhsil, yaxud məktəbəqədər tədris və təhsil müəssisələrinin avtorizasiya standartlarının bələdçisi hazırlanıb.

Bağçaların diaqnostik özünüqiymətləndirmə nəticələrinin analiz metodologiyası və analitiklər hazırlanıblar.

"Erkən və məktəbəqədər tədris və təhsil üzrə dövlət standartları" təsdiqlənib və təhsil-tədris prosesinin inklüzivliyinə əhəmiyyət verilib.

Nazirlik tərəfindən seçilmiş 5 bələdiyyədə (Oni, Duşeti, Keda, Dmanisi, Marneuli) mühafizədən kənar uşaq qruplarının məktəbəqədər təhsilə əlçatanlığını təmin etmək üçün strategiya və fəaliyyət planı hazırlanıb.

Avtorizasiya proseslərinə dəstək məqsədilə məktəbəqədər təhsil mütəxəssislərinin, sonradan isə ekspertlərin hazırlanması üçün 4 təlim-modul hazırlanıb. Modullar bu istiqamətdədir: 1. Təhsil; 2. Keyfiyyət; 3. Sanitariya, qida, gigiyena; 4. İnfrastruktur.

Təhsil Resurs Mərkəzinin mütəxəssisləri əlavə olaraq nazirlik tərəfindən yaradılmış təlim-modullarla hazırlanıblar. Müəllimlərin Milli Peşə İnkşafı Mərkəzi çərçivəsində 2 yeni təlim-modul yaradılıb və təsdiqlənib. Təlim-modullar "Uşağın inkişafı", erkən təhsildə uşaq firavanlığı və hüquqlarının müdafiəsinin qayğısına qalmaq mövzusundadır. "Oyun", sosial-emosional inkişafa dəstək, erkən təhsil kurrikulumu və onun tətbiqi haqqında təlim-modulları yenidən təsdiqlənib.

Erkən təhsil kurrikulumu "oyunu"nun tətbiqi məqsədilə "Erkən təhsil kurrikulumu təlim-modulu" ilə 459 təhsil və 165 inzibati heyət hazırlanıb; "Erkən inklüziv təhsil" təlim-modulu ilə 446 nəfər, "Teams" təlim-modulundan istifadə edərək isə 604 nəfər hazırlanıb.

Dayə-pedaqoqların peşə inkişafının təlim-modulunu təqdim edən təşkilat tərəfindən aparılan təlimlərin monitorinq qaydası təsdiqlənib.

Sənəddə eləcə də 2023-cü ilin dekabrın sonuna qədər "Dayə-pedaqoqların peşə inkişafının təlim-modulu"nu 3027 nəfərin keçdiyi, onlardan 1895 nəfərin bu təlimləri uğurla başa vurduğu haqqında söhbət açılır.

Avtorizasiya üzrə 217 ekspert hazırlanıb.

Acara regionunun 6 bələdiyyəsi üçün inklüziv təhsil strategiyaları hazırlanıb.

"Dayə-pedaqoqların peşə inkişafı təlim-modulu"na çağırılacaq təşkilatların müəyyən edilməsi üçün müsabiqə keçirilib. 5 yeni təşkilat müəyyən edilib, 7 yeni təlimçi uğurla hazırlanıb.

## XALQ MÜDAFİƏÇİSİ: "TƏHSİL SİSTEMİNDƏ APARILAN İSLAHATLAR ETNİK AZLIQLARIN QARŞISINDA DURAN PROBLEMLƏRƏ MÜVAFİQ CAVAB VERMİR"

Gürcüstanın Xalq Müdafiəçisi 2024-cü ilin aprelində Gürcüstanda insan hüquq və azadlıqları müdafiəsinin vəziyyəti haqqında illik hesabat yayımlayıb. 2023-cü illə bağlı hazırlanmış 386 səhifəlik hesabatda Gürcüstan Konstitusiyası ilə zəmanət verilmiş insan hüquqlarının müdafiəsi istiqamətində olan çatışmazlıqlar, tərəqqi və müvafiq qurumlara bir çox tövsiyələr yer alıb.

Xalq Müdafiəçisi hesabatda Gürcüstanda qeyri-gürcüdilli məktəb müəllimləri qarşısında duran sistematik problemlərə diqqət yetirir və yazır ki, təhsil sistemində aparılan islahatlar etnik azlıqların qarşısında duran problemlərə uyğun şəkildə cavab vermir. Nəticədə isə qeyri-gürcüdilli məktəblər/sektorlar yenidən bir sıra problem qarşısında qalırlar.

Ombudsman aktual problemlərdən biri kimi müəllimlərin "Müəllimin peşə inkişafı və karyerada irəliləmə sxemi" çərçivəsində baş, aparıcı, mentor müəllim statusunu qazanmağın çətinliyini qeyd edir.

"Bu məsələ kompleks xarakter daşıyır və bu kimi bir çox səbəblərdən yaranıb: dövlət dilini bilmək səviyyəsinin aşağı olması, yaşlı nəslin dili öyrənmək çətinliyi və onların fərdi ehtiyaclarına uyğun metodların, həvəsləndirici fəallıqların az olması, yaşlı nəsil nümayəndələrində gürcü dilini öyrənməyə motivasiyanın aşağı olması, dövlət dilini tədris edən proqramların kifayət etməyən coğrafi arealı və s. Bundan əlavə, diqqətə çatdırılmalıdır ki, qeyri-gürcüdilli məktəb/sektor müəllimlərinə peşə kompetensiyasını təsdiqləmək və karyera inkişafı imkanı gec verildi. Bu həmin məktəb/sektor müəllimlərini gürcüdilli məktəb müəllimləri ilə müqayisədə qeyri-bərabər vəziyyətə salır" – hesabatda deyilir.

Xalq Müdafiəçisi Təhsil, Elm və Gənclər Nazirliyini spesifik ehtiyacların aşkarlanması məqsədilə peşə inkişafı sxemini müzakirə etməyə, müvafiq qurumla əməkdaşlıq edərək vaxtında, effektiv şəkildə qeyri-gürcüdilli məktəblərin/sektorların müəllimləri üçün status dəyişmək imkanını təmin edəcək aktivliklər planlaşdırmağa çağırıb. Eləcə də etnik azlıqların sıx məskunlaşdığı bütün ərazi vahidliklərində dövlət dili tədris proqramının populyarlaşdırılması məqsədilə proqramın həyata keçirilmə coğrafi arealını genişəndirməyi, etnik azlıq nümayəndəsi olan yaşlı nəslin ehtiyaclarına uyğunlaşdırılmış təhsil komponentləri tətbiq etməyi tövsiyə edib.

## "ÜMUMTƏHSİL HAQQINDA" QANUNDA DƏYİŞİKLİK EDİLİB

Parlamentin təhsil komitəsi "Ümumtəhsil haqqında" qanunda dəyişiklikləri müzakirə edib. Ali qanunvericilik orqanına təqdim olunmuş sənədə əsasən, müəyyən dəyişikliklər məktəbdə işləyən müəllimlərin bir qisminə aiddir.

"Ümumtəhsil haqqında" Gürcüstan qanununun 61 "2" maddəsinin üçüncü bəndinə əsasən ("2023-cü ilin sonuna qədər həmçinin bakalavr və ya ona bərabər akademik dərəcəsi olan şəxsin müəllim işləməyə hüququ var. O, müəllim olaraq işləməyə başladıqdan 2 il müddətində müəllimlərin hazırlıq tədris proqramını və ya müəllimlərin hazırlıq tədris proqramının distant kursunu keçməlidir" – "Ümumtəhsil haqqında" qanun), 2024-cü ilin 1 yanvarına kimi ümumtəhsil müəssisəsində işləyən müəllimlərə aiddir.

Dəyişikliyə görə, "onlar istəklərini bildirdikləri halda, ümumtəhsil müəssisələrinin elan etdiyi vakant yerlərə "axtaran" müəllim olaraq qeydiyyatdan keçə biləcəklər.

Qanun layihəsində həmçinin qeyd olunub ki, "müsbət qərar qəbul olunduğu halda, o, məktəbdə "axtaran" müəllim olaraq işlə təmin olunacaq və ona 2 il ərzində peşə inkişafının akademik, praktiki kursunu keçmək imkanı veriləcək. "Axtaran" müəllim praktiki kursu məktəbdə keçir, bunun üçün məktəb tərəfindən əlavə maddi resursun ayrılmasına ehtiyac qalmır. "Axtaran" proqramının akademik kursu isə, artıq mövcud olan, özünü tənzimləyən distant kurs keçməyi nəzərdə tutur. Bu da dövlət tərəfindən əlavə maddi xərc tələb etmir".

Məqsədlə bağlı, sənəddə deyilir ki, "bu proses məktəblərdə iş axtaran layiqli namizədin sağlam müsabiqə şərtləri ilə seçilməsi imkanını yaradır və vakant yerlərin vaxtında kvalifikasiyalı kadrlarla dolmasını təmin edir.

Bunun nəticəsində məktəblərdə kadr çatışmazlığı riski aradan qaldırılacaq. Çünki məktəbə müəllim statusu olan şəxs seçilmədiyi halda, müsabiqə yolu ilə "axtaran" müəllim olaraq məhz ona qədər, müvəqqəti maddə ilə məktəbdə statussuz işləyən şəxsi işlə təmin etmək hüququ veriləcək. Həmin vakant vəzifələrə veriləcək əməkhaqqını məktəb ilin əvvəlində təsdiq edir. Ona görə də dəyişiklik əlavə maddi resursun səfərbər edilməsini tələb etmir".

*Səhifədəki məlumatlar "etaloni.ge" və "edu.aris.ge" saytlarından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə ƏLİYEVA**

# İSLAM MUSAYEVİN XATİRƏSİNƏ



*Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır (Mustafa Kamal Atatürk).*

Müəllimlik peşəsi bütün dövrlərdə ən hörmətli, dəyərli və müqəddəs peşə olub. Müqəddəs peşə sahibi olan müəllimlər öz fədakarlıqları, sədaqətləri ilə şagirdlərinə bilikdən başqa bir ürək və ruh zənginliyi bəxş ediblər. Müəllim zülmətdə yanan nurdur, cəhaləti elmin qılıncıyla yox edən, qəlbiylə insanlara yaxınlaşan şəxsiyyətdir. O, gənc nəslin mənəvi aləminin memarıdır, cəmiyyətin etibar etdiyi şəxsdir.

Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə nə qədər dəyər versən də azdır. Müəllimlər haqqında yazmaq mənim üçün çox məsuliyyətlidir, eyni zamanda şərəfverici və qürurverici bir haldır. Mən özum də ziyalı ailəsində doğulmuşam, bu peşənin daşıyıcısı və təmsilçisiyəm. Məhz buna görə adları artıq əfsanəyə çevrilmiş, yaddaşlarda həkk olunmuş müəllimlərdən yazmağı özümə borc bilirəm. Düşünürəm ki, gənc nəsil onları tanımalı və dəyərləndirməlidir. Belə müəllimlərdən biri İslam Musayevdır.

İslam Şamil oğlu Musayev 1921-ci ildə Borçalı mahalının Lüksemburq (Bolnisi) rayonunun Sayalıoğlu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Tbilisi Pedaqoji Məktəbinə qəbul olmuş, bir il sonra köçürmə yolu ilə Marneuli Türk Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir. 1940-cı ilin yanvarında təhsil nazirliyinin qərarına əsasən Axırkələk bölgəsinin Baqdanovka rayonunun Sağamoy kəndinə göndərilmişdir. Bu kənd həmin rayonda Azərbaycan türklərinin yaşadığı ən böyük məntəqə idi. Dünyəvi məktəblərin fəaliyyət göstərməsinin çox çətin olduğu bir dövrdə İslam müəllim ilk türk ibtidai sinfini açmağa nail olmuşdur. İki nəfər həmkarı ilə birlikdə təhsil uğrunda əsl mübarizəyə başlayan İslam müəllimin həyatı dəfələrlə təhlükədə olsa da bu, onu əzmkarlıqla getdiyi yoldan döndərməyib. O, 1941-ci ildə öz arzusu ilə müharibəyə yollanmış və Marşal Jukovun komandanlıq etdiyi 1-ci Ukrayna cəbhəsində vuruşaraq Almaniyaya qədər getmişdir. Qələbə gününü Oder çayı sahillərində qarşılamış, 1-ci və 2-ci dərəcəli Döyüş Şöhrəti, "Qızıl Ulduz", "Berlinin azad olunmasına görə", "İgidliyə görə" və bir çox orden və medallarla təltif olunmuşdur.

Dəfələrlə yaralanmasına baxmayaraq yenidən cəbhəyə qayıtmışdır. 1945-ci ildə müharibədən qayıdıb doğma Sayalıoğlu kəndindəki məktəbdə müəllim, eyni zamanda kolxozda mühasib işləmişdir. İslam müəllim öz doğma kəndindən başqa Daşlıqullar (indiki Muxrana), Qoçulu



(indiki Çapala) və Sarallar kəndlərində də müəllim kimi işləmiş, gənc nəslin təhsili, maariflənməsi və inkişafı uğrunda fədakarlıqla, əzmlə çalışmışdır. 1962-ci ildə Əsmələr kəndinə köçüb bütün ömrünü bu kəndlə bağlamışdır. İslam Musayev 2012-ci ildə vəfat etmişdir.

İslam müəllimin yolunu bu gün nəvəsi Araz Musayev davam etdirir. Araz müəllim Parlaq Gələcək Gənclər Mərkəzinin təsisçisi və rəhbəridir. O, babasının təhsil, tərəqqi, inkişaf və maarifçilik ideyalarının daşıyıcısı və yorulmaz davamçısıdır. Araz müəllimə babasının başladığı, özünün isə əzmlə və sevgiylə davam etdirdiyi müəllimlik fəaliyyətində uğurlar arzulayıram!

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*

# ATA SEVGİSİ

Bir neçə ay öncə universitetdən evə qayıdarkən yolda gözümə bir kağız parçası sataşdı. Yolu keçirdim deyə tələsik götürüb əlimdəki kitabın arasına qoydum. Sonra necə olubsa o kağızı tamam unutmuşam...

Oxuduğum kitabları adətən bir müddət sonra yenidən oxuyuram. Çünki yenidən oxuyarkən fərqli düşünə bilirəm. Fikir vermişəm, hər dəfə oxuyarkən "burada bu mövzudan danışılırdımı" deyə özümə sual verirəm. Bir sözlə, insan düşüncəsi, insan psixologiyası az bir müddət belə olsa nələrisə özündə dəyişir. Nə isə, bunu kənara qoyaq. Kağız parçası deyirdim haa, onu indi kitabı yenidən açıb oxumaq isdəyərkən tapdım. Kağızda yazılanları oxuyanda nələri hiss etdiyimi ifadə edə bilmirəm. Gözlərim doldu, yazığım gəldi, əsəbiləşdim, sonra nifrət oyandı qəlbimdə, həyatın ədalətsizliyini sorğuladım, bütün duyğu və hissləri eyni anda yaşadım sanki. Bu kağız parçasındakı yazı ruhu öldürülmüş bir qızın göz yaşlarıyla yazdığı həyatı idi:

*"Hər kəs atasından danışıb atam onu aldı, atam belə elədi deyəndə, həyatda ola-ola yanımda olmayıb, məni susdurub bir küncdə ağlatdığın üçün çox sağ ol, ata... Sənin yerini dolduracağına inandığım biri var idi.*

*Məni ilk sən yarı yolda buraxdın, onunla tamamlandığıma o qədər inanmışdım ki, amma söhbət o deyil, yaxşı valideyn öləndən sonra da uşağının xatirəsində qalır. Sən indi sağsan, amma nə fayda? Varlığınla yoxluğun bilinmir. Məni sevdiyinə inandığım adam məni yarı yolda qoydu, eynən sənin kimi... Mənə dedi ki, səni heç atan sevməyib, mən niyə sevim. Qəlbim elə qırılıb ki, nə sənə ürəyimdəki sözləri deyə bilirəm, nə də ona. Bilirsən necədi?*

*Sonunun gəlməsindən qorxduğum hekayənin sonunu özüm gətirdim. Oxuyarkən suallarla başlayan, vergüllərlə davam edən, nöqtəsini isə özüm gətirdiyim əsər idi o mənim həyatımda. Könül evimin başında durarkən, indi artıq onu evin qapısının kandarında görmək belə məni incidir... Bir vaxtlar o gözlərdə ölüm belə şirin ikən mənə, indi şirin olan həyatda mənasızdı elə bil hər şey."*

Xeyli düşündüm, görəsən atasının sevgisizliyi idi onu həyatdan bezdirən, yoxsa mənasız həyatdan getmək atasının yoxluğunumu bəhanə edirdi hər kəsə. Atasızlığı idi ona dünyanı ağ-qara göstərən, yoxsa elə dünyası əzəldənmi ağ-qara olub...

Dünyaya ilk gəldiyimiz andan tanımağa çalışdığımız insanlar: anamız və atamız... Onlarla birlikdə həyatı, eşqi, sevgini və insanı anlamağa başlayırıq. Beləliklə, ata və ana hamımızın həyatında çox vacib bir təsirə sahibdir. Necə kişi, ya da necə qadın olacağımızı və ya necə bir münasibət yaşayacağımızı, duyğularımızı necə ifadə edəcəyimizi onlardan öyrənirik. Kim bilir sevgini bu qızcığaz kimi kənarda axtaran neçə qızlar var. Buna sövq edən neçə atalar var?

Sevgiyə ehtiyacı olan biri üçün bir təbəssüm, bir xoş söz belə ona bütün dünyaya əvəzdir. Qəlbi təmiz olub sizdən çox şey istəməyənlərdən sevginizi əsirgəməyin. Bir təbəssüm yetər zəhərlənmiş, həyat eşqi sönmüş bir qəlbi işıqlandırmağa, sevgi, şəfqət, mərhəmət hisslərini yenidən oyatmağa.

Ana tərbiyəsi ənənəvi olaraq önəmli hesab edildiyindən, təəssüf ki, cəmiyyətdə ata tərəfindən qıza verilən tərbiyənin vacibliyi lazımi diqqət almır. Bu doğru yanaşma deyil, çünki qızın tərbiyəsində elə məqamlar var ki, bunun üçün məsuliyyət atanın üzərinə düşür və ana nə qədər çalışsa da atanı əvəz edə bilməyib, bilməyəcək də.

Qızın gələcəkdə qadın kimi formalaşmasına, kişilərlə olan münasibətlərinə və həyat yoldaşı seçiminə əsaslı şəkildə təsir edən amil ata ilə münasibətidir. Ata qızının həyatında ilk və ən önəmli kişi nümunəsidir. Onun məsuliyyəti çox böyükdür. Kaş bütün atalar bunu biləydi. Atam həmişə deyir ki, "hər bir qızın ilk qəhrəmanı, ilk sevgisi onun atasıdır". Mənim üçün atam bütün dünyadır...

Ümumiyyətlə, bütün qız uşaqları üçün ata bütün dünyadır və əgər bu dünya onu sevirsə və qəbul edirsə, həmişə kömək etməyə və qorumağa hazırdırsa, deməli, o heç nədən qorxmaya bilər. O, hər şeyin yaxşı olacağına, həmişə dəstək və qayğı tapacağına inanır, çünki bütün dünya onun tərəfindədir.

Bir övlad üçün ata yenilməz dağdır. Ata meyvəsi tükənməz faydalı bir ağacdır. Onun kölgəsi belə heç bir şeylə müqayisə olunmayan ən qiymətli varlıqdır. Övladın kiçik uğuruna böyük fəxr hissi ilə yanaşan varlıq da məhz atadır.

Heç vaxt yadımdan çıxmaz, biz məktəbi



uğurla bitirəndə atamın gözlərindəki fərəh dolu baxışı, dilində isə qürur dolu sözləri, hədsiz-hüdudsuz sevinci məni dünyanın ən uca zirvəsinə qaldırmışdı.

Ata həyatımızın ən müqəddəs, ən ülvi varlığıdır. Ata bu dünyada ömrü boyu yanan əzəmətli, sönməz atəşdir. O atəş ki, işıltısı ilə, istiliyi ilə övladının həyatda xoşbəxt yaşamağına səbəb olur. Bəli, atam mənim həyatda ən böyük xoşbəxtlik səbəbim və həyatımın qəhrəmanıdır.

Əziz valideynlər, uşaqlarınızı sevginizdən, məhəbbətinizdən məhrum etməyin. Uşaqlarınızı ürəksiz böyütməyin. Vaxtında qollarınızı açıb bütün dünyanı qucaqlarmışcasına övladlarınızı qucaqlayın. Çünki sizin dəyər vermədiyiniz qızlar sabah böyüyür, qarşısına çıxan ilk adama aldanır, ərə gedir və ömrü boyu eyni sevgisizlikdən ölür.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# KAŞ O GÜNLƏR BU GÜN OLAYDI...



**1. Mənim babam kim olub?**

Məni uşaqlıqdan tanıyanlar çox fərqli uşaq olduğumu deyirlər (deyəsən elə indi də fərqliyəm). Bunu ona görə yazıram ki, xatirələrim həqiqətdir, təsvirim isə bu gününün yox, elə ötən illərdəki dərk etdiyim kimidir.

Yadıma bulanıq gəlir. Bağça uşaqlarından tutmuş fəhləyə, kəndliyə qədər – hamını böyük bir tədbirə hazırlayırdılar. Danışırdılar ki, Brejnev Bakıya gəlir, oradan da Tbilisiyə Marneulidən keçib gedəcəkdi və bütün yol boyu əhali əlində bayraq onu salamlayacaqdı. Bu söhbətləri dərk edəcək yaşda olmasam da, evdəki söhbətlərdən yaddaşımda belə qalmışdı. Hətta bağçadan qardaşıma bayraq çatmamışdı, anam ona çubuqdan və qırmızı pioner qalstukundan bayraq düzəldib, üstünə də təbaşirlə oraq-çəkic çəkmişdi. Mən evdə bütün günü mahnı oxuyurdum:

*Qoy həmişə Günəş olsun,*
*Qoy həmişə anam olsun,*
*Qoy həmişə sülh olsun,*
*Qoy həmişə olum mən.*

Qardaşım da qalstuklu bayrağı əlində yelləyə-yelləyə məşhur şeiri deyirdi:

*Lenin, Lenin dilimdə!*
*Qızıl bayraq əlimdə!*
*Çalışaram, vuruşaram*
*Lenin babam var olsun!*
*Dörd tərəfi bağ olsun!*

Beləcə hamı həsrətlə gözləyərkən qəflətən nə tapşırıq gəldisə hamıya dağılışmaq tapşırığı verildi. Yadıma gəlir ki, məhəllədə kimsə “bəs qonaq gəlmədi” deyə soruşdu. Dedilər “çerez Rustavi getdi” və güldülər.

Bu həqiqət idi, yoxsa zarafat – bilmirəm. O yadımdadır ki, biz həyətimizə çatanda yenə qardaşım bayrağını yelləyib, ayağını yerə döyüb şeirini deyəndə sürətlə bayrağı alıb yerə atdım və qışqırdım: “Eh, bizim öz babamız yoxdur? Xalxın babasına baba deyirik?” Anam mənim tez ağzıma yüngül vurdu və “bir də elə danışsan atanı tutarlar, Lenin hamımızın babasıdır” dedi. Mən qorxdum, daha babamıza irad tutmadım. Axı onda bağça yaşlı idim...

**2. Atamı xoşbəxt edən ikinci ad.**

Həmin illərdə bəlkə də ətrafda çox belə ailələr vardı. Bizim ailəmizin, qohumlarımızın belə bir alışqanlığı vardı: axşam saat 22:00-da hamı süfrə arxasında “Vremya” adlanan bir proqrama baxardı. Qəliz cümlələri dərk etməsəm də, onu bilirəm ki, xüsusən də bir həyətdə yaşadığımız böyük əmimlə atam müzakirə aparar və atam sonda deyərdi: “Ay qa, mənə ləzzət edən odur ki, çlen büroda adı ikincidir e, ikinci”.

Veriliş başlayanda qadın və kişinin siması bu gün də xatirimdədir və o səs qulağımdadır: PREZİDİUM VERXOVNOQO SOVETA SSSR, ÇK KOMPARTİİ SSSR, ÇLEN POLİTBYÜRO... və siyahısında ikinci ad deyilirdi: Qeydar Aliyeviç Aliyev.

Qaranlıq gecədə birdən bir metiorit gəlir haa, bəlkə görmüsüz zülmətdə, bir işıq yanıb sönür. Bax, o ab-havanı təsəvvür edin, gərgin vəziyyət... mənim ailəm və birdən o üzlərin siyahısı deyilir. Onları nə Donbas kömür mədəni, nə Özbəkistan pambıqçıları maraqlandırmırdı, onları yalnız o siyahıdakı ikinci ad maraqlandırırdı...

Xoşbəxtlik cismin dördüncü halı kimi gözlə görünmür, enerji kimi, işıq kimi, ocaq kimi gəlir-gedir. Yalnız xatirəsi qalır. Bax, siyahıdakı ikinci ad həmin an bizim ailəyə, xüsusən də atama hər gün o xoşbəxtliyi yaşadırdı.

Mən anamdan soruşdum ki, ALİYEV kimdir ki? Anam yəqin məni başından etmək üçün kəsə dedi: “O bizim padşahımızdır!”

O fərqli uşaq fərqli ideyasını təzədən irəli sürdü: “O bizim Lenin babamız olarmı?”

Anam bu dəfə çimdiyini daha sanballı götürdü: “Atalar üçdən deyib, bu ikinci səhvindir. Bir də elə sual versən atanı tutub aparacaqlar. Sənə dedim Lenin baba bir dənədir”.

Əksər qızlar atanı çox sevir və həmişə onu itirməkdən qorxurlar. Odur ki, mən Lenin baba axtarışıma son qoydum.

**3. Heydər Əliyev məktəbində tələbə.**

Heyif uşaqlıq illərim... yalan da olsa, böyük bir inam, təbliğat, sülh şəraiti olan mühitdən yazmadan keçirəm uşaqlığın son dönəminə. Artıq həyatı təzə dərk etməyə başlarkən, özümüzə yeni babalar kəşf edərkən yaşadığımız balaca dünya çalxalandı. Yeniyetmə yaşımız siyasi tüğyanların, milli münaqişələrin, çevrilişlərin girdabında çalxalandı. Elə anlaşılmazlıqlar yaşadım ki az yaşımda (4-cü, 5-ci sinifdən) – ziyalı mühitdə qəzetlər, jurnallar, kitablar əhatəsində “yenidənqurma və aşkarlıq” işığında, bəlkə də ətrafımdakıların böyük əksəriyyətinin bilmədiyi çox gerçəkləri oxumuşdum. Artıq mənə məlum idi ki, mənim bir yox, onlarla Lenin babam varmış. Siyasətə kənardan baxan bir uşaq kimi sadəcə kənardan izləyirdim, təbii ki, azyaşlı, yeniyetmə, təcrübəsiz, dünyada qürurla “mənim babam kim olub” axtarışında olan biri kimi. Ən böyük arzum tələbə olmaq idi, özü də Bakıda – mənəvi paytaxtımızda.

Beləliklə, tarixdə bir formasiya başa çatdı. Sosializm dağılmışdı. Keçid dövrü çətinlikləri hər sahədə geniş vüsət almışdı. Təhsildə də əsaslı yeniliklər vardı – özəl universitetlər, xaricə çıxış və s. Anam təkidlə mənim dövlət statuslu ali məktəbdə, özü də Bakıda oxumağımı istəyir və məni xüsusi hazırlaşdırırdı. Azərbaycanda isə artıq stabilləşmə gedirdi. Hakimiyyət dəyişmişdi və mən test üsulu ilə qəbul olmuşdum.

Anamın, atamın sevinci bir yana, nənəm hamıya məni belə təqdim edirdi: “Gördünüz hara qəbul oldu? –Əliyevin oxuduğu məktəbə”.

Bəli, Heydər Əliyev Bakı (Azərbaycan) Dövlət Universitetinin tarix fakültəsini bitirmişdi. Sadəcə ən böyük fərqimiz: o Sovet Azərbaycanında, mən müstəqil Azərbaycanda tələbə olacaqdım.

**4. Mənim qısqanclığım.**

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk zamanlar ardıcıl olaraq xarici səfərlərə geniş zaman ayırırdı. Azərbaycanın müstəqilliyini tanıyan bütün ölkələrə səfər etdi, tanımayanları tanımağa sövq etdi. Yox, mən siyasətdən yazmıram, mən fərdi baxışdan yazıram, düşüncəmdən yazıram. Artıq Azərbaycan öz babasını kəşf etmişdi. Uşaqlar daha “Lenin baba” şeiri əzbərləmirdilər. Bütün Azərbaycan uşaqlarının öz babası vardı: Heydər baba!

Mənsə ürəyimdə iki qısqanclığı gizlədirdim: birinci, hələ çox kiçikkən bizim padşahımızın Lenin babamız olması ideyasını mən irəli sürmüşdüm, amma müəllifi mən olmadım. İkinci də, atasını çox sevən bir qız kimi atasıyla qoşa addımlayan babanın qızını. Axı elə dahi bir atası vardı. Əlbəttə, bu sirri mən indi açıram. Özü də fəxrlə, gülümsəyərək, ərk edərək, axı o öz babamızdır.

**5. Məşhurlarla görüşlər.**

Bəlkə də zamanı səhv deyirəm, artıq “ƏSRİN MÜQAVİLƏSİ” imzalanmış, Azərbaycanın imzası imzalar içində idi. İndi Bakıya prezidentlərin, baş nazirlərin rəsmi səfərləri başlamışdı. Bütün qonaqları Heydər Əliyev öz iqamətgahında qəbul edir, danışıqlar aparır, sonra Bakı Dövlət Universitetinə dəvət edirdi. Burada professor, tələbə heyəti ilə maraqlı, müsahibəli görüş olardı və sonda fəxri doktor adı verilib öz ölkəsinə yola salınardı.

Bəlkə də mən xoşbəxt idim ki, universitetimizin seçilmiş tələbələri siyahısında mən də vardım və o görüşlərin demək olar ki, hamısında iştirak etmişəm – Butros-Butros Qalidən Marqaret Teççerə, Şevardnadzedən Dəmirələ...

Hardasa 3-cü, 4-cü sıralarda otururardım. Heydər Əliyevin qeyri-adi qəbul etdiyim gülüşü, yerində hazırcavablığı, bəzən tənəli baxışı gözüm önündə idi və o qədər anlaşılmazlıqlarım vardı ki... Axı 17-18 yaşla hansı siyasi analizi edə bilərdim. Hələ zəngin müxalifət qəzetləri, radiosu, televiziyası, üstəgəl dedi-qodusu olan yerdə... Mənə elə gəlirdi, Heydər Əliyevin sifətində cizgilər də, baxışı da danışırdı. Hətta bir dəfə çıxışda təsadüfən gəncləri yaxına çağırdı, onda mən onu lap yaxından gördüm...

Gənclər suallar verdi, siyasətdən bir yersiz sual olmuşdu, onda mənə elə gəldi, bir anda onun sifətinin rəngi və cizgiləri dəyişdi. O, elə cavab verdi ki, daha heç kim danışmadı: “Siz elə bilirsiniz bütün bu işlər və onu bacarmaq asandır?!

Bu həm sual, həm də nida idi.

**6. Mən nəyə təəssüf edirəm...**

Mən bu gün həmin dövrdəki Azərbaycanı bataqlıqda lövbər vuran bir gəmiyə bənzədirdim. O gəmi yalquzaqlar əhatəsində idi. O yalquzaqlar içində özümüz də vardıq. Əgər bir koordinat oxu təsəvvür etsək, bax, o gəmi sıfır nöqtəsində idi. Heydər Əliyev o gəmini bataqlıqdan çıxarıb çayın axınının əksi istiqamətində bir yola düzəltdi. O yol uzun çəkdi, çarpışaraq yolunu getdi və 2020-yə çatdı. Biz orta nəsil bu yolun şahidi olduq.

Bilirsinizmi nəyə təəssüf edirəm? – Kaş mən görüşlərdə gördüyüm, dinlədiyim babamızı bugünkü zəfər yüklü düşüncəmin, təcrübəmin, yaddaşımın gözüylə, məntiqiylə izləyəydim. Onda mən o cizgilərin, baxışların, bəzən acı, bəzən istehzalı, bəzən də qürurlu gülüşlərin mənasını daha yaxşı dərk edərdim. Axı mən tək milli baba axtarışında olan uşaq yox, həm də yaxşı psixoloqam...

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GÜLÜŞÜN ESTETİKASI

**Elizbar CAVELİDZE**



*(əvvəli ötən sayda)*

Xoca Nəsrəddinin lətifələrində qazilər və rəsmi islamın yararsız xidmətçiləri heç də az məsxərəyə qoyulmur: Vəd edilmiş hədiyyənin müqabilində ədalətsiz hökm verən hakimə peyin göndərir. Belə hakimlər başqasının inəyinə həyasızcasına yanaşır, hətta sahibini də mühakimə edir. Səfeh eşşəkləri idarə başçısı və hakim təyin edənləri məzəmmət edir. Hakimin məlumatsızlığı, anlaşılmazlığı, hökm çıxara bilməməsi insanı şoka salır. Çox az deyil ki, belə vəziyyətə düşənlər öz bəsirəti ilə ədalətli qərar verən mollaya üz tuturlar. Amma o da əlamətdardır ki, hakim təyin olunan Xoca Nəsrəddin bəzən öz axmaqlığını göstərir. Belə kontekstdə təqdim olunan yumor ümumən bütün faniləri səciyyələndirən insan zəifliyini tərənnüm edir, daha doğrusu, ümumən insanların ədalətinə inanmadığı ədalət institutu məhv olur.

Elə burada özümü saxlaya bilmirəm və Xoca Nəsrəddinin bu gün ölkəmizdə hökm sürən məhkəmə sistemi və bu quruma hücum edən, heç vaxt “doğru qanun” mövqeyində dayanmayan bəzi əyri, ədalətsiz hakimlər haqqındakı mənfi mövqeyini, zəhərli kinayəsini bölüşə bilmirəm. Göründüyü kimi, bu qurumda hökm sürən eybəcərlik lap qədimdən mövcud idi. O, özünü Xoca Nəsrəddindən əvvəl göstərirdi və indi də özünü göstərir, bu gün də çiçəklənir.

Xocanın istehzasının obyekti də açıq-aşkar amansız mübarizə elan etdiyi dərvişdir. Məlum olduğu kimi, dərvişlik institutu müxtəlifliyinə baxmayaraq, Orta əsrlərdə Yaxın Şərqin ictimai həyatında, xüsusən də türk və Azərbaycan xalqlarının dini və ictimai həyatında böyük rol oynayırdı. Dərvişin cəmiyyətdə müxtəlif forma və situasiyalarda göründüyü hamıya məlumdur: gah yoxsul dilənçi, gah da ictimai üsyanın rəhbəri, gah dindar övliya, gah riyakar şarlatan, gah da qüdrətli insan olub. Tənhalıqda duran zahid və bəzən Allahın xeyir-dua verdiyi müqəddəs abdalı, nə qədər fərqli olsa da, təhqir etməyə icazə verilmirdi. Xalqın ümumi fikrini dilə gətirən, özünün əsl simasını müxtəlif üsullarla, əsasən də amansız istehza ilə çəkməyə çalışan Xoca Nəsrəddini qıcıqlandıran da məhz bu “layiq olmayan” səlahiyyətdir. Hətta Xoca ilə Dərvişin mübahisəsinin danışıldığı bu lətifə də bundan bəhs edir. Sonuncu Məhəmmədin qohumluğu ilə fəxr edirdi və dəfələrlə dördüncü səmaya qalxırdı. Bundan əsəbiləşən Xoca birdən bu sırtıqdan soruşdu: “Qalxdığınız zaman dodaqlarınıza yumşaq bir şeyin toxunduğunu hiss etdinizmi?” Həyəcanlı dərviş qürurla cavab verdi: “Bəli, doğrudan da!” Sonra Xoca onun sözünü kəsdi: “Bu mənim eşşəyimin quyruğu idi!” Əlamətdar odur ki, burada təkcə Dərviş məsxərəyə qoyulmur, Xoca onu peyğəmbərlə qohumluqda ittiham edən hər kəsi ələ salır. Ən əsası, dördüncü göyə yüksəlmə möcüzəsini və səmavi görüntünü israr etdi. Aydındır ki, Orta əsrlərin mömin cəmiyyəti bunu müsbət qəbul edə bilməzdi. Ümumiyyətlə, demək lazımdır ki, Xoca, başqa sözlə desək, dindar müsəlmanın heç bir təəssüratını yaratmır: oruc tutmur, dəstəmaz almır (elə götürək, çimən zaman suyun onun ev ayaqqabısını apardığı və buna görə Tanrıya qarşı onun məzəmmət etdiyi lətifəni xatırlayaq), dəyərləndirmir və ümumən müsəlmanlığa riayət etmir (Erməni qadının oğlunun müsəlman olmasının matəmini saxlamasını və onu Nəsrəddinin necə sakitləşdirdiyini xatırlayaq). Səsini eşşəyin anqırtısına bənzətdiyi müəzzini ələ salır, üstəlik köhnə, sarğılı ayaqqabılarını vacib dini kitab kimi qəbul edir, məsciddə hamının Quran oxuyarkən yuxuya getdiyini əlahiddə qeyd edir, ikinci gəliş haqqında ironiya ilə danışır və ən əsası da tam anlamadığı Allahı məzəmmət etməsi tez-tez eşidilir, Xocanın yalvarışlarına heç məhəl qoymur, ona kömək etmək əvəzinə, əksinə edir. Buna görə də ondan Allahın gözü varmı deyə soruşduqda o, belə cavab verdi: “Onun bir gözü var, o da qıyıqdır. Beləliklə, yerə baxanda insanları görmür. Əlini uzadıb kiməsə toxunduqda onu qaldırıb yoxlayır. Kişinin xoşuna gəlsə, ondan həzz alır və ləzzət alır, xoşuna gəlmirsə, yerə atır və o, yenidən kəlləmayallaq yer üzünə tərəf uçur”. Beləcə və bu cür, mollanın düşüncəsinə görə, “birgözlü Tanrı” hər şeyi bilən ola bilməz və buna görə də dünyada, aləmdə mövcud olanları qeyri-bərabər paylayır. Belə bir nöqteyi-nəzər onsuz da yumor və zarafat yox, küfr idi. Amma həqiqəti etiraf edək: bu küfr düşüncəsi məzlum xalqın qəlbində yuva salırdı və bu gün də şoğərib quyruqlunu fırladır (Quyruqlular gürcülərin mifoloji təmsilçisi və folklorunda quyruğu olan insan, əksəriyyəti qadındır, lakin onun mövcudluğu başqa insanlardan gizlidir. Əgər bu aşkar olsa, onun quyruqluluğunun qüvvəsi itir - Tərcüməçi). Elə isə mollanı qurban verməyək və anlayaq ki, bu, mollanın ağzı ilə demiş



camaatın fikridir!

Bir sözlə, Xoca Nəsrəddinin gülüşü dünyəvilikdən insanların həyatının bütün sahələrinə, bütün təbəqələrini: tacirləri, zənginləri, ortodoksal islamın müdafiəçilərini, istərsə də ezoterik sufiləri, dini təlim mürəbbilərini, fəlsəfi risalələrin müəlliflərini, alimləri, şairləri, ailə üzvlərini, dostlarını gözü qarşısında qoyarsa, onları layiqincə qiymətləndirir. Eyni zamanda mürəbbi, küfr edən, alim, şair, filosof və ya sadə ailə başçısı rolunda görünür, gülüşün iti qılıncını əldən buraxmır, yararsız başları amansızcasına kəsir. Bir sözlə, o, eşşəyə minmiş, yel dəyirmanları ilə nəinki vuruşan, eləcə də əsrlər boyu insanı narahat edən, əzablandıran o qüsur və pisliklərin kökünü kəsib qazmağa qalxan Don Kixotdur. Təəssüf ki, bütün dünya zaman və dövrdə bu ölkənin zamana uyğunlaşdırılmış güclülərini unudurlar!

Nəsrəddinin gülüşünü əgər ümumi səviyyədə götürsəm, bu, camaatın ümumxalq gülüşüdür. Bunu daha da ümumiləşdirsəm, bu, bəşəriyyətin gülüşüdür, üstəlik, insanın nöqsanını və Tanrının verdiyi ləyaqəti tanıya bilməməsini, özünü dünyanın hökmdarı hesab etməsini və mənəvi axtarışlarını apara bilməməsini ələ salan kosmik istehzadır.

*(davamı növbəti sayda)*

Müəllif: **Elizbar CAVELİDZE**

Gürcü dilindən tərcümə etdi:

**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MAY
2024-CÜ İL
№ 09 (204)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# AZƏRBAYCANDA MÜASİR GÜRCÜ POEZİYASININ TANINMIŞ SİMALARININ KİTABLARININ TƏQDİMATI KEÇİRİLİB



Azərbaycanın Dövlət Tərcümə Mərkəzi "Gürcüstan poeziyası günləri" çərçivəsində müasir gürcü poeziyasının tanınmış simaları David Şemokmedelinin "Astananın iki üzü", Makvala Qonaşvilinin "Min ikinci gecə" və Bela Keburianın "Sayrışan şəfəqlər" kitablarının təqdimat mərasimini keçirib.

Tədbirdə çıxış edən Mərkəzin İdarə Heyətinin sədri, Xalq yazıçısı Afaq Məsud son illər Azərbaycan-Gürcüstan ədəbi əlaqə və mübadilələr istiqamətində həyata keçirilən tərcümə və nəşr layihələrindən danışıb.

Sonra Mərkəzin mətbuat və nəşr məsələləri üzrə müşaviri, yazıçı-tərcüməçi Yaşar Əliyev, Mərkəzin Elm, təhsil, mədəniyyət idarəsinin rəisi, yazıçı-tərcüməçi Etimad Başkeçid, şair-tərcüməçi Mahir Qarayev, şair-tərcüməçi İmir Məmmədli və Gürcüstanın Azərbaycandakı səfirliyinin baş müşaviri Avtandil Napetvaridze çıxış edərək son illər Azərbaycan-Gürcüstan ədəbi əlaqələrinin inkişafından, Dövlət Tərcümə Mərkəzinin Gürcüstan Yazıçılar Birliyi, Rustaveli Cəmiyyəti, Batumi Yazıçılar Evi, "Merani" və "İverioni" nəşriyyatları ilə birgə həyata keçirdiyi layihələrdən, Azərbaycan ədəbiyyatının Gürcüstanda, gürcü ədəbiyyatının Azərbaycanda tanıdılması və təbliği istiqamətində görülən işlərdən danışıblar.

Gürcüstan Rustaveli Cəmiyyətinin prezidenti, şair David Şemokmedeli deyib: "Mərkəzdə yüksək səviyyədə təşkil olunan "Gürcü poeziyası günləri" bizim ədəbiyyatımıza göstərilən ali mənəvi dəstəkdir ki, onun da əhəmiyyəti və dəyəri zaman-zaman artacaq, bugünkü və gələcək azərbaycanlı oxucular bu kitablar vasitəsilə gürcü poetik ruhunun mənzərəsi ilə tanışlıq imkanı qazanacaqlar".

Tədbirin sonunda şairlərin imza mərasimi keçirilib.

# BƏLƏDİYYƏLƏRİN GƏLİRİNDƏ QRANTLARIN HİSSƏSİ NƏ QƏDƏRDİR?




Gürcütanın Maliyyə Nazirliyinin göstəricilərinə əsasən, Tbilisi bələdiyyəsinin büdcə gəlirləri 2024-cü ilin ilk üç ayında 367348 lari təşkil edib. Buradan 32,9 %-dən artıq – 120913 lari qrantdır. Bu, demək olar ki, gəlirlərdən əldə olunan fayda – 156716 lari qədərdir. Qrantlar olmasaydı xərclər bələdiyyənin gəlirlərini xeyli üstələyərdi və 1322 lari mənfi saldo yaranardı.

Batumi bələdiyyəsinin büdcəsində də qrantların hissəsi kifayət qədər yüksəkdir. 2024-cü ilin ilk rübündə bələdiyyə vergilərdən 15223 lari, qrant olaraq isə 13315 lari əldə edib. Ötən il bu baxımdan Batumi üçün xüsusi il olub. Bələdiyyə qrantlar vasitəsilə 12 ayda 134000 lari toplayıb. Bu, 2022-ci ilin analoji göstəricisindən 53,4 % (87327 lari) çoxdur.

Qrantlar Kutaisi bələdiyyəsinin gəlirlərinin 24,4 %-ni təşkil edib. İlin ilk üç ayında bələdiyyə 23653 larilik gəlir əldə edib, buradan 5767 lari qrantların payına düşür. Qrantlar olmasaydı Kutaisi bələdiyyəsinin xərclərində 2899 lari mənfi saldo olardı.

Böyük şəhərlərdən qrantlardan ən az asılı olan Rustavi olub. Yanvar-fevral-mart aylarında Rustavi bələdiyyəsinin gəlirləri ümumilikdə 16607 lari təşkil edib. Buradan 16 %, yəni 2657 lari qrantların payına düşür. Digərlərindən fərqli olaraq Rustavi bələdiyyəsi böyük qrantlar almasa da xərclərində 5044 lari mənfi saldo yaranıb.

# GÜRCÜSTANA SƏFƏR EDƏN RUSİYALI TURİSTLƏR ÜÇÜN ŞƏRTLƏR DƏYİŞİR



İyunun 1-dən Gürcüstanda turistlər üçün yeni qaydalar qüvvəyə minəcək. Bu barədə Rusiya Turoperatorları Assosiasiyası məlumat yayıb.

Bildirilib ki, qeyd olunan tarixdən etibarən ölkəyə gələn bütün qonaqlardan qaldıqları bütün müddət ərzində tibbi sığorta tələb olunacaq.

Yaydan başlayaraq Gürcüstana gələn hər bir turist ölkədə qaldığı bütün müddət ərzində tibbi sığortaya sahib olmalıdır. Bu tələbi pozanlar təxminən 110 ABŞ dolları məbləğində cərimə olunacaqlar.

Səyahətlərini və uçuşlarını təkbaşına planlaşdıran səyahətçilər bu tələbə xüsusi diqqət yetirməlidirlər.

# GÜRCÜSTAN BU İL TURİZMDƏN 4,5 MİLYARD DOLLAR ƏLDƏ EDƏCƏK



Gürcüstan 2024-cü ildə turizmdən 4,5 milyard dollar əldə edəcək.

Bu barədə "Galt & Taggart" investisiya kompaniyasının araşdırmasında yazılıb.

Bildirilib ki, yanvar-mart aylarında beynəlxalq səyahətçilərin səfərlərinin sayı il ərzində 7,6 % artaraq 1,3 milyon nəfər təşkil edib.

Ümumi ziyarətlərin 938,6 min nəfərini turist səfərləri təşkil edib ki, bu da ötən ilin birinci rübü ilə müqayisədə 11 % çoxdur.

# AVROPA İTTİFAQI ÖLKƏLƏRİ 1015 GÜRCÜSTAN VƏTƏNDAŞINI DEPORTASİYA EDİB




2024-cü ilin birinci rübündə Avropa İttifaqı (Aİ) ölkələri 1015 Gürcüstan vətəndaşını deportasiya edib.

Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, deportasiya edilənlər arasında 628 kişi və 159 qadın var.

Qeyd edilib ki, deportasiya edilənlərdən üç nəfəri Gürcüstan qəbul etməkdən imtina edib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.